# Bakıdakı məhkəmənin İrəvanda yaratdığı təlaş

## Ermənistan təcavüzkar müharibə zamanı Azərbaycana qarşı törədilən hərbi cinayətlərin məsuliyyətindən yayınmaq üçün manipulyasiyalar edir

**Təcavüzkar və işğalçı Ermənistan Azərbaycan xalqına qarşı saysız cinayət əməlləri törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda keçirilən məhkəməsi ilə bağlı siyasi manipulyasiyalar edir, kampaniyalar aparır. Bununla da qondarma dövlət onilliklər boyu həyata keçirdiyi hərbi cinayətlərlə bağlı məhkəmədə ortaya qoyulan faktlardan diqqətləri yayındırmağa çalışır.**



Ancaq elə təkcə təqsirləndirilən keçmiş quldur və separatçı rejimin başçısı Arayik Harutyunyanın məhkəmə prosesində verdiyi sərbəst ifadə Ermənistanın Azərbaycana qarşı işğalçı və təcavüzkar siyasətini, milli düşmənçilik zəminində törətdiyi faşist əməlləri ifşa etməyə yetir. Harutyunyan ifadəsi zamanı etiraf edib ki, Azərbaycana qarşı törədilən hərbi cinayətlərin əmri məhz Ermənistandan verilib. O deyib ki, qondarma rejim bütün əmrləri rəsmi İrəvandan alıb, Ermənistanın uydurduğu "Qarabağ müdafiə ordusu" birbaşa bu ölkənin Müdafiə Nazirliyinin tabeliyində olub. Hətta 2020-ci il müharibəsində Harutyunyan baş nazir Nikol Paşinyana müharibənin dayandırılması ilə bağlı müraciətlər etdiyini, lakin ona qulaq asılmadığını da bildirib.

Məhkəmə prosesində A.Harutyunyanın verdiyi sərbəst ifadə, həm də Ermənistanın nə üçün Bakıda keçirilən və ədalətin təntənəsi kimi tarixə düşəcək bu məhkəmə prosesi əleyhinə təbliğat aparmasının səbəblərini gün kimi ortaya qoyur.

### Faktlar ortadadır

Əbəs yerə deyil ki, baş nazir Nikol Paşinyan, eyni zamanda erməni mətbuatı həmin təqsirləndirilən şəxslərə psixoloji təzyiq göstərilməsi və psixotrop dərmanların verilməsi barədə yalanlar uydurmağa başlamışdılar. Müharibə canisi Robert Koçaryan da erməniəsilli şəxslərin Bakıda keçirilən məhkəməsi ilə bağlı cəfəng fikirlər səsləndirmişdi. Fevralın sonunda Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycanda erməni məhbusların və müharibə cinayətlərində ittiham olunan şəxslərin məhkəmə prosesi ilə bağlı əsassız bəyanat vermişdi.

Ermənistanda müxtəlif səviyyələrdə məhkəmə ilə bağlı sərgilənən çirkin davranışlarla bağlı gətirdiyimiz bu nümunələrə diqqət etmək də bəs edir görəsən ki, Bakıdakı məhkəmə prosesi Ermənistanda ciddi narahatlığa səbəb olub, Azərbaycan xalqına qarşı hərbi cinayət əməlləri törədənlərin yuxularına haram qatıb. Gec-tez Levon Ter-Petrosyan, Serj Sarkisyan, Robert Koçaryan da qanlı əməllərinə görə ittiham kürsüsünə otuzdurulacaqlar. Onsuz da Ermənistanın bu üç faşist prezidenti törətdikləri hərbi cinayət əməllərini özləri də etiraf ediblər və heç şübhəsiz, vaxt gələcək bu etiraflar Azərbaycanın beynəlxalq məhkəmələrdə istifadə edəcəyi qiymətli faktlar olacaq.

Hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər barəsindəki cinayət işi üzrə ittiham aktında qeyd olunur ki, 1988-2024-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb.

1988-2023-cü illərdə ermənilər tərəfindən Azərbaycanın Qarabağ bölgəsi və ətraf ərazilərində 100-dən çox fərqli-fərqli işgəncə metodları tətbiq edilməklə 1698 azərbaycanlı girov götürülüb. Əsir və girov götürülən 1284 dinc sakindən 122-si mülki sakin, əsir götürülmüş 414 nəfər hərbi qulluqçudan isə 48 nəfəri, ümumilikdə 170-i işgəncələr və qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb.

Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardıqları təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılıb. Bununla da ölkəmizə xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

Hazırda Ermənistan rəhbərliyi bu və sadalamadığımız digər çoxsaylı hərbi cinayət əməllərinin məsuliyyətindən yayınmaq üçün məhkəmə prosesi əleyhinə kampaniyalara start verib.

### Ermənistan cinayətlərinin zamanla unudulacağını düşünürsə...

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev martın 8-də özünün "X" sosial şəbəkəsindəki səhifəsində yazıb ki, Ermənistan Azərbaycanda hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin məhkəmə prosesi əleyhinə təbliğat aparır.

Prosesin Ermənistanın siyasi rəhbərliyində ciddi narahatlıq yaratdığını və onu məhkəmə prosesinə qarşı yeni təbliğat kampaniyasına başlamağa, Azərbaycanın daxili işlərinə müdaxilə etməyə sövq etdiyini bildirən H.Hacıyev daha sonra yazıb: "Ümid edilir ki, Ermənistan digər beynəlxalq-hüquqi öhdəliklərlə yanaşı, Beynəlxalq Cinayət Məhkəməsinin üzvü olaraq bu kontekstdə törədilmiş təcavüz aktları, hərbi və digər ağır cinayətlərə görə məsuliyyətini tanıyacaq".

Prezidentin köməkçisi qeyd edib ki, məhkəmə prosesinə qarşı lazımsız təbliğat aparmaq əvəzinə, Ermənistan hökuməti keçid dövrü ədalətinin bərpasına və regionda dayanıqlı sülhün bərqərar olunmasına töhfə vermək üçün Azərbaycanla əməkdaşlıq etməlidir: "Sülhə və Azərbaycanla yeni münasibətlərə səmimi can atma digər məsələlərlə yanaşı, Ermənistanın öz məsuliyyətini tanımağa və hərbi cinayətlərdə ittiham olunanları, xüsusilə hazırda Ermənistan ərazisində gizlənənləri təhvil verməyə hazır olması ilə nümayiş etdirilərdi".

H.Hacıyev bildirib ki, əgər Ermənistan öz cinayətlərinin zamanla unudulacağını düşünürsə, ciddi şəkildə yanılır: "Azərbaycan Ermənistanın hərbi təcavüzünə hərbi-siyasi vasitələrlə uğurla son qoyduğu kimi, bu gün təcavüzün günahsız qurbanlarının hüquqlarının təmin edilməsi, ədalətin bərqərar olması və hərbi təcavüzdə, insanlıq əleyhinə cinayətlərdə, hərbi cinayətlərdə ittiham olunan şəxslərin və dövlətin məsuliyyətə cəlb edilməsi üzrə unikal məhkəmə təcrübəsi nümayiş etdirir".

Göründüyü kimi, Azərbaycana qarşı apardığı işğalçı və təcavüzkar müharibə zamanı törətdiyi hərbi cinayət əməllərinin faktlarla ifşa olunmasına görə rəsmi İrəvan təşviş içərisindədir. Buna görə də Ermənistan rəhbərliyi Bakıda keçirilən ədalət məhkəməsi ətrafında müxtəlif manipulyasiyalar etməklə məşğuldur. Ancaq üç onillik ərzində həyata keçirdiyi işğal siyasətinə, Qarabağda qanunsuz qurum yaratdığına, xalqımıza qarşı milli zəmində soyqırımı, kütləvi qətliamlar törətdiyinə görə, Ermənistan beynəlxalq hüquq müstəvisində mütləq cavab verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 11 mart (№53).- S.8.